## Ümumi məlumat

BMT-nin Uşaq Fondu (UNICEF) 1946-cı ildə təsis edilmiş beynəlxalq təşkilatdır. UNICEF-in əsas missiyası uşaqların hüquqlarının qorunması, sağlamlığı, təhsili və rifahının təmin edilməsi, həmçinin qidalanma və sosial müdafiə sahələrində dövlətlərə dəstək göstərməkdir. Təşkilat dünyanın 190-dan çox ölkəsində fəaliyyət göstərir.

Azərbaycan 1993-cü ildən UNICEF-in tərəfdaşıdır. Ölkəmizdə UNICEF uşaqların sağlamlığı, qidalanması, təhsili, sosial müdafiəsi və erkən inkişafı istiqamətlərində bir sıra layihələr həyata keçirir.

Agentlik yarandığı dövrdən etibarən UNICEF ilə əməkdaşlığın genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirir. Qida Təhlükəsizliyi Agentliyi UNICEF-lə birgə ölkədə uşaqların sağlam qidalanmasının təşviqi və qida təhlükəsizliyinə dair maarifləndirici tədbirlərin həyata keçirilməsində əməkdaşlıq edir. Bu əməkdaşlıq çərçivəsində əhalinin sağlam həyat tərzinin təşviqi və qida təhlükəsizliyinin təmin edilməsinə yönəlmiş təşəbbüslər dəstəklənir.

Qeyd edilən qurumla bir sıra fəaliyyətlər həyata keçirilmişdir:

- “Məktəblilərin qida bələdçiləri” pilot layihəsi
- “Ana südü əvəzedilməzdir” layihəsi
- “Buğda ununun zənginləşdirilməsi” layihəsi
- Körpələrin və uşaqların qidalanması ilə bağlı milli qanunvericiliyin təkmilləşdirilməsi
- Milli qanunvericiliyin “Ana Südü Əvəzedicilərinin Marketinqi üzrə Beynəlxalq Məcəllə”lə uyğunlaşdırılması
- Hamilə və süd verən anaların sağlam qidalanmasına töhfə verəcək elmi əsaslı məlumat toplusunun hazırlanması